

2020

# AİB-in FƏALİYYƏTİNƏ QISA NƏZƏR

European Investment Bank Group

Estoniyada təmiz enerjiyə, Lesotoda isə içməli suya çıxışın təmin edilməsindən tutmuş, Xorvatiyada daha təkmil bir xəstəxananın qurulmasına qədər, Avropa İnvestisiya Bankının həyata keçirdiyi fəaliyyətlər hər il milyonlarla insanın həyatını yaxşılaşdırır.

Avropanın iqlim bankı olaraq, biz dünyanın Paris Sazişinin məqsədlərinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmasına kömək edirik. Biz qarşıdakı onillik ərzində iqlimlə bağlı fəaliyyətlərə 1 trilyon avro investisiya etməyi öhdəmizə götürürük.

1958-ci ildən bəri, biz 160-dan artıq ölkədə minlərlə layihə üçün kredit və ekspert məsləhəti təmin etmişik. Biz Avropa Komissiyası və digər çoxsaylı qurumlarla yaxından əməkdaşlıq şəraitində Avropanın gələcəyinə investisiya edirik.

Dünyanın ən iri və iqlimyönümlü çoxtərəfli kreditoru olaraq, biz iqtisadiyyatların çiçəklənməsinə, iş yerləri yaratmasına və bərabərliyi yaxşılaşdırmasına kömək edirik. Biz öz işimizi onun cəmiyyətə verdiyi töhfənin səviyyəsi ilə ölçürük. Çünki hər bir investisiyanın sayəsində həyatlar yaxşılaşdırılır.



Xorvatiyanın Riyeka şəhərində analar və uşaqlara qulluq üçün açılmış yeni xəstəxana 600 000 nəfər üçün həyatı asanlaşdırır.  Bu layihə AİB-in krediti ilə maliyyələşdirilir, həmçinin, AİB-in və Avropa Komissiyasının məsləhət dəstəyindən yararlanır.

# 2019-cu ildə təsirlərimiz

| | |
|---|---|
| 280 milyard avro | AİB-in dəstəyi sayəsində həyata keçirilən investisiya |
| 72.2 milyard avro | AİB Qrupu tərəfindən maliyyələşdirmə |
| 1 095 | imzalanmış layihə |
| 50.3 milyard avro | istiqraz bazarlarında cəlb edilmiş kapital |
| 25 milyard avrodan yuxarı | kiçik bizneslər üçün maliyyələşdirmə |
| 19 milyard avrodan yuxarı | iqlim tədbirləri üçün maliyyələşdirmə |
| 16 milyard avrodan yuxarı | ətraf mühitin mühafizəsi üçün maliyyələşdirmə |
| 14 milyard avrodan yuxarı | innovasiyaların gücləndirilməsi üçün maliyyələşdirmə |
| 4.4 milyon | kiçik bizneslərdə qorunub saxlanılmış iş yerləri |
| 10 milyon | təmiz içməli su ilə təchiz olunmuş insanlar |
| 12 milyon | daha yaxşı səhiyyə xidmətləri ilə təchiz olunmuş insanlar |
| 7.4 milyon | elektrik şəbəkəsinə qoşulmuş ev təsərrüfatları |
| 117 milyon | daha yaxşı mobil əlaqə ilə təmin olunmuş insanlar |
| 631 milyon | ictimai nəqliyyatla edilmiş əlavə səyahətlər |
| 1.7 milyon | daşqınlara məruzqalma riski azalmış insanlar |
| 5.1 milyon $m^2$ | enerjidən səmərəli istifadə edən binaların sahəsi |



2019-cu ildə AİB tərəfindən dəstəklənən layihələr 13 177 MVt enerji istehsal edəcək ki, bu da 7.4 milyon ailəni enerji ilə təchiz etmək üçün kifayətdir.

# İqlim

İqlim bugünkü nəslin üzləşdiyi ən böyük çağırışıdır. O, uşaqlarımızın rifahını və gözlənilən ömür uzunluğunu müəyyən edəcək. Bizim iqlim və enerji ilə bağlı hədəflərimiz Avropada və ondan kənarda yeni standartları təyin edir. Yaxın gələcəkdə biz mədən yanacaqlarını dəstəkləməyi dayandıracaq, investisiyalarımızın 50%-ni iqlimlə bağlı fəaliyyətlərə və dayanıqlılığa ayıracağıq.

Biz iqlim dəyişikliyinin həssas icmalara təsirlərinin aradan qaldırılmasına, biomüxtəlifliyin qorunmasına kömək edir, dayanıqlı əkinçiliyi təşviq edirik. Biz, həmçinin, təbii resursları qoruyub saxlayır, ətraf mühiti gələcək nəsillər üçün daha təhlükəsiz edirik. Biz bütün fəaliyyətlərimizdə iqlimi düşünürük. İnnovasiya, kiçik bizneslər və ya infrastruktur üçün dəstəklədiyimiz hər bir layihə iqlimlə bağlı məqsədlərimizə cavab verməlidir.



AİB-in dəstəyilə, Estoniyanın "Elcogen" şirkəti bazara səmərəli və təmiz yanacaq elementinə əsaslanan elektrik enerjisi gətirir.

# İnnovasiya

İnnovasiya Avropanın rəqabətliliyini qoruyur və yüksək dəyər yaradan iş yerləri yaradır. AİB Qrupu Avropa şirkətlərinə müasir texnologiyaları ərsəyə gətirmək imkanı verir. Biz ən müasir ideyaları biznes uğuruna çeviririk.

Bank irimiqyaslı elmi-tədqiqat işlərinə, habelə kiçik, ixtisaslaşmış şirkətlərə kömək edir. Bizim telekommunikasiya, aviasiya, tibb və rəqəmsallaşma kimi sektorlara investisiyalarımız özəl sektordan əlavə maliyyələşmə cəlb etmək üçün “təsdiq möhürü” kimi çıxış edir.

Biz innovasiyanın bir çox mərhələlərini dəstəkləyirik. Bankın kreditləri sayəsində universitetlər öz elmi-tədqiqat təsisatlarını yarada və genişləndirə, startaplar öz heyətini genişləndirə, avadanlıqlarını yaxşılaşdıra bilərlər. Biz insanların beyinlərində dünyanı yaşamaq üçün daha yaxşı bir yerə çevirən ideyaları bəsləyirik.



İtaliyada AİB ilə "Unicredit" arasındakı öncül layihə çərçivəsində qadınların rəhbərlik etdiyi bir neçə yüz innovativ biznesə dəstək göstərilir.

# İnklüzivlik

Bank geniş spektrli maliyyə məhsullarını güzəştli şərtlərlə təklif edir. Biz özəl və dövlət sektorlarına kredit veririk. Biz kiçik biznesləri və gəncləri gücləndiririk. Biz qadın sahibkarların kreditlərə və rəhbər vəzifələrə çıxışını təmin etməklə, onlara dəstək göstəririk. Biz əhalinin aztəminatlı qrupları, özünüməşğul şəxslər və mikromüəssisələr üçün maliyyələşmə və biznes məsləhətini əlçatan edirik. Biz heç kəsin geridə qalmamasını təmin edirik.

AİB layihə dəyərinin maksimum yarısını maliyyələşdirir. Bu yolla, biz özəl sektorun daha çox cəlb olunması üçün təkanverici qüvvə kimi çıxış edir, layihələr üçün cəlb olunan investisiya səviyyəsini artırırıq. Biz həm də layihənin uğurla həyata keçirilməsi üçün texniki yardım təklif edirik.



AİB-in Afrikada - Lesotoda həyata keçirdiyi inkişaf layihəsi düzən ərazilərin bir çox hissələrində 300 min nəfəri təmiz içməli su təchizatı və kanalizasiya xidmətləri ilə təmin edir.

# Dayanıqlılıq

AİB beynəlxalq kapital bazarlarında istiqrazlar buraxmaqla maliyyə vəsaitlərini cəlb edir. Mükəmməl kredit reytinqimiz əlverişli dərəcələrlə vəsait toplamağa imkan verir. Biz bu üstünlükləri müştərilərimizə ötürürük.

Bizim kapital bazarı üzrə ekspertlərimiz yaşıl və dayanıqlı istiqraz bazarını yaratmış və inkişaf etdirmişdir. Biz hazırda dünyada yaşıl istiqrazların ən iri supramilli emitentiyik. Bu istiqrazlar bərpa olunan enerji, enerji səmərəliliyi, təmiz su və kanalizasiya xidmətlərinə dəstək göstərir. Biz maliyyə işinin dayanıqlılığını təmin edirik.

# Öhdəlik

Biz bütün fəaliyyətlərimizdə şəffaflığı və hesabatlılığı təmin edirik. Yüksək ekoloji və sosial standartlarımız bizi mükəmməl bir tərəfdaşa çevirir. Bizim iqtisadçılar, mühəndislər, maliyyə analitikləri və iqlim mütəxəssislərindən ibarət yüksək ixtisaslı, qətiyyətli və müxtəlif tərkibli heyətimiz var və onlar dünyanın müxtəlif yerlərində yerli ekspertlər, təşkilatlar və hökumətlərlə gündəlik əsasda işləyirlər.

Təkliflərimiz barədə daha ətraflı məlumat üçün
**www.eib.org/products** səhifəsini ziyarət edə bilərsiniz.

**Avropa İnvestisiya Bankı**
info@eib.org
**www.eib.org**

European Investment Bank
The EU bank

#BelieveInSmall

AİB Qrupu Avropa İnvestisiya Bankı (AİB) və Avropa İnvestisiya Fondundan (AİF) ibarətdir.

AİB Avropa İttifaqının bankıdır. O, dünyanın ən iri çoxtərəfli borcalan və borcverən qurumudur. Qərargahı Lüksemburqda yerləşən AİB Avropanın daxilində və xaricində yerləşən yerli və regional ofislərdən ibarət geniş şəbəkəyə malikdir.

AİF Avropada və ondan kənardakı bir sıra ölkələrdə kiçik bizneslərin maliyyə resurslarına çıxışını yaxşılaşdırmaqla, onlara dəstək göstərir. AİF innovasiya və məşğulluğu təşviq etmək üçün vençur və artım kapitalı, zəmanətlər və mikromaliyyə alətlərini hazırlayır və inkişaf etdirir.

© Avropa İnvestisiya Bankı, 2020
Fotolar: GettyImages, Shutterstock

"Condat Silk FSC Mix" kağızında çap edilmişdir.
Avropa İnvestisiya Bankı Meşələr üzrə İdarəetmə Şurası (FSC) tərəfindən sertifikatlaşdırılmış kağızdan istifadə edir. Çünki bu kağız ağacları sevən insanlar tərəfindən hazırlanır.

Imprimerie Centrale tərəfindən çap edilmişdir.

FSC www.fsc.org MIX Paper from responsible sources FSC® C103749

02/2020
print: QH-04-20-021-AZ-C ISBN 978-92-861-4537-7 doi:10.2867/140783
pdf: QH-04-20-021-AZ-N ISBN 978-92-861-4504-9 doi:10.2867/36773